ISSN: 2710-9960 (Print)
ISSN: 2710-8432 (Online)

JOURNAL OF "HISTORY OF SCIENCE"
Cild 2, Say 1, Sıra 3, 2021, 62-70

THE THEORETICAL ASPECTS OF THE USE OF FOLKLORE IN THE APPLICATION OF MODERN TRAINING TECHNOLOGIES

Serkhan KHAVERİ[19], Sefa GARAYEV[20] Hikmet GULİYEV[21]

UDC 372. 0:002.
KBT 82. 3(0)

Keywords:

Applied folklore
Virtual folklore
Lifelong education
Modern educational technologies
Pedagogy
Functional semantics
Psychological complex

ABSTRACT

In the article written from the aspect of applied folklore (learning through folklore), which is one of the actual directions of modern folklore, the approaches such as techno-cultural, psychoanalytic and social psychological approaches as theoretically-methodologically are used. The perspectives of the use of folklore in the rapid dissemination of information-communication technologies and the defining of effective training technologies in the conditions of abundance of information are analyzed in the article. In order to use the functional capabilities of virtual folklore in lifelong education and to identify its psychological aspects, the transfer of knowledge and experience in traditional culture and educational technologies in modern education are compared, the applying perspectives of the potential opportunities of folk pedagogy to lifelong education are looked through. In the article it is noted that as folklore has a separate role in formation of socio-psychological essence of personality, local social groups belonging to them have a condition parameter status in formation of character, outlook, system of values, desires and wishes of individuals. In this regard, the individual's free sociability to all spheres of society without experiencing psychological complex and tension, the purposeful integration into various social groups show the need for deep learning of these local social groups. One of the goals of modern education is to direct to the growing new generations to be free from non-humane local stereotypes and to adopt stereotypes that are in harmony with human values. In this context it is mentioned that if modern educational technologies are used effectively by virtual folklore samples, it should greatly help people move away from local psychological stereotypes without experiencing widespread cultural shock and acculturation stress in the globalized environment.

[19] ANAS Institute of Folklore, Assos. Prof
sarxan.xaveri@mail.ru
[20] ANAS Institute of Folklore, Assos. Prof
safaqara@mail.ru
[21] ANAS Institute of Folklore, Assos. Prof
quliyevh@mail.ru

Received: 16.01.2021
Accepted: 04.03.2021

MÜASİR TƏLİM TEXNOLOGİYALARININ TƏTBİQİNDƏ FOLKLORDAN İSTİFADƏNİN NƏZƏRİ ASPEKTLƏRİ

Sərxan XAVƏRİ[22], Səfa QARAYEV[23], Hikmət QULİYEV[24]
UOT 372. 0:002.
KBT 82. 3(0)

Açar sözlər:

Tətbiqi folklor
Virtual folklor
Ömürboyu təhsil
Müasit təlim texnologiyaları
Pedaqogika
Funksional semantika
Psixoloji kompleks

ANNOTASİYA

Müasir folklorşünaslığın aktual istiqamətlərindən biri olan tətbiqi folklorşünaslıq (folklor vasitəsilə öyrənmə) aspektindən qələmə alınmış məqalədə nəzəri-metodoloji olaraq kulturoloji, texnokulturoloji, psixoanalitik və sosial psixoloji yanaşmalardan istifadə olunmuşdur.

Məqalədə informasiya-kommunikasiya texnologiyalarının sürətlə yayılması, informasiya bolluğu şəraitində effektiv təlim texnologiyalarının müəyənləşdirilməsində folklordan istifadənin perspektivləri təhlil olunmuşdur. Ömürboyu təhsildə virtual folklorun funksional imkanlarından istifadə və onun psixoloji aspektlərinin müəyyənləşdirilməsi üçün ənənəvi mədəniyyətdə biliyin və təcrübənin ötürülməsi mexanizmləri ilə müasir təhsildə tədris texnologiyaları müqayisə olunmuş, xalq pedaqogikasının potensial imkanlarının ömürboyu təhsilə tətbiq perspektivləri nəzərdən keçirilmişdir.

Məqalədə diqqətə çatdırılır ki, folklor şəxsiyyətin sosial-psixoloji mahiyyətinin formalaşmasında əlahiddə rola malik olduğu üçün fərdlərin xarakterinin, dünyagörüşünün, dəyərlər sisteminin, arzu və istəklərinin yaranmasında onların mənsub olduqları lokal sosial qruplar şərtləndirici parametr statusuna malikdir. Bu baxımdan fərdin psixoloji kompleks və gərginlik yaşamadan cəmiyyətin bütün sferaları ilə sərbəst ünsiyyətə daxil olması və müxtəlif sosial qruplara çevik, məqsədyönlü adaptasiyası (inteqrasiya) həmin lokal sosial qrupların dərindən öyrənilməsi zərurətini meydana çıxarır. Müasir təhsilin hədəflərindən biri də yetişən yeni nəsilləri qeyri-humanist, lokal stereotiplərdən azad olmağa, bəşəri dəyərlərlə həmahəng olan stereotiplərin mənimsənilməsinə yönəltməkdir. Bu kontekstdə məqalədə diqqətə çatdırılır ki, əgər müasir təlim texnologiyalarında virtual folklor nümunələrindən səmərəli istifadə edilərsə, bu, qloballaşma şəraitində geniş yayılmış mədəni şok və akkulturasiya stressi yaşamadan insanların lokal psixoloji stereotiplərdən uzaqlaşmasına böyük yardım etmiş olar.

[22]. AMEA Folklor İnstitutu, Filologiya üzrə fəlsəfə doktoru, dosent
sarxan.xaveri@mail.ru
[23]. AMEA Folklor İnstitutu, Filologiya üzrə fəlsəfə doktoru, dosent
safaqara@mail.ru
[24]. AMEA Folklor İnstitutu, Filologiya üzrə fəlsəfə doktoru, dosent
quliyevh@mail.ru

Məqalə redaksiyaya daxil olmuşdur: 16.01.2021
Təkrar işlənməyə göndərilmişdir: 28.01.2021
Çapa qəbul edilmişdir: 04.03.2021

ISSN: 2710-9960 (Print)
ISSN: 2710-8432 (Online)
JOURNAL OF "HISTORY OF SCIENCE"
Cild 2, Say 1, Sıra 3, 2021, 62-70

ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ ИСПОЛЬЗОВАНИЯ ФОЛЬКЛОРА ПРИ ВНЕДРЕНИИ СОВРЕМЕННЫХ ТЕХНОЛОГИЙ ОБУЧЕНИЯ

Сархан ХАВЕРИ[25], Сафа КАРАЕВ[26] Хикмет КУЛИЕВ[27]

UOT 372. 0:002.
KBT 82. 3(0)

Ключевые слова:

Прикладной фольклор
Виртуальный фольклор
Непрерывное обучение
Современные технологии обучения
Педагогика
Функциональная семантика
Психологический комплекс

АННОТАЦИЯ

В статье, написанной в аспекте прикладного фольклора (обучение посредством фольклора), который является одним из актуальных направлений современного фольклора, теоретически и методологически были использованы культурный, технокультурный, психоаналитического и социально-психологического подхода.

В статье анализируются перспективы быстрого распространения информационно-коммуникационных технологий, перспективы использования фольклора при определении эффективных технологий обучения в условиях информационного изобилия. С целью использования функциональных возможностей виртуального фольклора в непрерывном обучении и определения его психологических аспектов были сопоставлены технологии обучения в современном образовании с механизмами передачи знаний и опыта в традиционной культуре, перспективы применения потенциала народной педагогики в непрерывном образовании.

В статье отмечается, что, поскольку фольклор играет особую роль в формировании социально-психологического природы личности, локальные социальные группы, к которым они принадлежат, имеют статус условного параметра в формировании характера, мировоззрения, системы ценностей, желаний и стремления людей.

С этой точки зрения способность человека свободно общаться со всеми сферами общества, не испытывая психологической сложности и напряжения, а также его гибкая, целенаправленная адаптация (интеграция) к различным социальным группам, требуют глубокого изучения этих местных социальных групп. Одна из целей современного образования - побудить новое поколение освободиться от бесчеловечных локальных стереотипов, принять стереотипы, гармонирующие с общечеловеческими ценностями. В этом контексте в статье отмечается, что, если современные технологии обучения эффективно используют виртуальный фольклор, это может помочь людям отойти от локальных психологических стереотипов, не испытывая широко распространенного культурного шока и аккультурационного стресса в условиях глобализации.

[25]. Института Фольклора НАНА, Кандидат филологических наук, доцент
sarxan.xaveri@mail.ru
[26]. Института Фольклора НАНА, Кандидат филологических наук, доцент
safaqara@mail.ru
[27] Института Фольклора НАНА, Кандидат филологических наук, доцент
quliyevh@mail.ru

GİRİŞ

Məlumdur ki, ənənəvi mədəni mühitdə biliyin ötürülməsinin institusional subyektləri və strukturları mövcud olmuşdur. Yazının meydana gəlməsindən əvvəl şifahi kommunikasiya mərhələsində informasiya–qazanılmış təcrübə və bilik məhz ənənəvi mədəniyyətin institusional subyektləri olan yaşlı şəxslər, müdrik ağsaqqallar, babalar və nənələr tərəfindən empirik modellərlə nəsildən-nəslə ötürülürdü. Türk xalqları içərisində geniş yayılmış Aşıq sənəti isə mədəni institusional qurum kimi şifahi biliyin ötürülməsinin, müasir terminlə desək, təlimin müəllim-şagird ("ustad-şəyird") zəncirvari modelində dövriyyəsinin təcəssümü idi. Bu baxımdan folklor biliyin ötürülməsi və mənimsədilməsində təkcə mənbə kimi deyil, həm də effektiv kommunikasiya kanalı olmaqla diqqəti cəlb edir.

Ənənəvi mədəniyyətin funksional təlim texnologiyaları

Ənənəvi mədəniyyətin təlim texnologiyaları aşağıdakı xüsusiyyətlərə malikdir:

1. *Dini təlim texnologiyalarından fərqli olaraq doqmatik deyil, demokratik təbiətə malikdir.*

Şifahi mədəni mühitdə bilik və təcrübənin ötürülməsi ənənəvilik əsasında sabit modellərə malik olsa da, təbiəti etibarı ilə fərdlərin bacarıq və qabiliyyətinə uyğunlaşmaq imkanına sahibdir. Məsələn, ustad-şəyird münasibətlərində folklorik vahidlərin şəyirdlərə öyrədilməsi hədəf seçilməsinə baxmayaraq, öyrənənlərin individual parametrlərinin, spesifik xarakterlərinin üzə çıxarılmasına xüsusi diqqət yetirilir. Təsadüfi deyidlir ki, aşıqlar ifaçı və yaradıcı olmaqla iki hissəyə bölünür. Mədəni sistemdəki ustad-şəyird münasibətlərinə nəzər salanda aydın olur ki, bu təsnifat, əslində, öyrənən şəyirdlərin individual qabiliyyətlərinə əsasən həyata keçirilir. "Beş barmağın beşi də eyni ola bilməz", "Quyuya su tökməklə su dolmaz" (13, 108) və s. kimi atalar sözləri, əslində individuallığa işarə edir. Beləliklə, real sosial həyatdakı münasibətlərin məntiqindən və diktəsindən doğan bu gerçəklik, folklorda paremik vahidlərlə təsbit olunmuşdur.

2. *Həyati situasiyaları nəzərə almaqla operativ adaptasiya xüsusiyyətinə malikdir.*

Folklor insanlararası və qruplararası real və virtual kommunikasiya proseslərinə əsaslandığı üçün o, müvafiq həyat situasiyalarına uyğun olaraq, çevik adaptasiya xüsusiyyətinə malikdir. Filoloji baxımdan mətn çoxvariantlılığı kimi qiymətləndirilən folklorik təzahür, əslində, sosial həyat şərtlərinin təsiri altında folklorun çevik adaptasiya xüsusiyyətinin göstəricisidir. Bu cəhət ənənəvi mədəniyyətdə bilik və təcrübənin ötürülməsi, müəyyən bir qrup kontekstində normativləşdirilməsi üçün olduqca mühüm rola malikdir. Bəlli olduğu kimi, folklor prosesində biliyi ötürənlə qəbul edən fərdlər və qruplar arasında müəyyən yaş, cins, peşə, sosial mənsubiyyət, dini, etnik və s. fərqlər mövcuddur. Belə şəraitdə qeyd etdiyimiz bu fərqli cəhətlər bilik və təcrübənin effektiv ötürülməsi üçün maneələr kimi çıxış edir. Folkoristik təlim texnologiyalarında bu maneələrin aradan qaldırılması məhz həyati situasiyalara uyğun operativ adaptasiya vasitəsilə mümkün olur. Məsələn, uşaq oyunlarının əsas funksiyası gerçəkliyin qayda və qanunlarının praktik yolla uşaqlara qavradılmasıdır. Lakin müşahidələr onu göstərir ki, eyni oyunların yeniyetmələr üçün olan variantları onlarda cinsi diferensasiya təsəvvürlərinin formalaşdırılmasına xidmət edir.

3. *Biliyin empirik yolla əldə edilməsi və ötürülməsi xüsusiyyətinə malikdir.*

Müxtəlif sosial qrupların öz folklorunu ötürməsi üçün müəyyənləşmiş bir proqramı yoxdur. Həyatın müxtəlif sitausiyalarında ehtiyac yarandıqda müəyyən folklor vahidləri təkrarlanmaqla nəsildən-nəslə ötürülür. Folklorun peşə və sənətlərlə bağlı olan hissəsi isə öyrədən və öyrənən subyektlərin əyani, vizual və performativ keyfiyyətləri əsasında həyata keçirilir.

4. *Fasiləsiz öyrənmə və öyrətmə xüsusiyyətinə malikdir.*

Müasir dövrün əsas təhsil konseptlərindən olan ömürboyu təhsil mahiyyəti etibarı ilə folklorun təbiətinə xas

olan bilik və təcrübənin fasiləsiz ötürülmə xarakteri ilə yaxından səsləşir. Belə ki, biliyin fasiləsiz şəkildə əldə olunması və ötürülməsi konsepti mədəniyyətin özündə də mövcuddur. Azərbaycan atalar sözündə vurğulandığı kimi *"Öyrənmək heç xaxt gec deyil"* imperativi bilavasitə ömürboyu təhsilə çağırışdır.

Müasir dövrdə ömürboyu təhsil dedikdə "bilik, bacarıq, kompetensiya (səriştə) və ya kvalifikasiyaların təkmilləşdirilməsi ilə nəticələnən ömürboyu təlimin (öyrənmənin) bütün növləri" (10) nəzərdə tutulur. Ömürboyu təhsil üzrə əsas kompetensiyalar (səriştələr) isə "hər bir şəxsə fərdi inkişaf, cəmiyyətə inteqrasiya olunma və məşğulluq üçün zəruri olan bilik, bacarıq, dəyər, yanaşma, fikir və xarakterik cəhət kimi xüsusiyyətləri özündə birləşdirən, dəyişə bilən çoxfunksiyalı sistemi əks etdirir. Bu kompetensiyalar (səriştələr) təhsilalana tədris olunan bütün fənlər çərçivəsində icbari təhsil və ya təlimin sonunda kompleks şəkildə qazanılmalı və ömürboyu təhsil prosesinin tərkib hissəsi olaraq gələcək təhsil üçün əsas rolunu oynamalıdır" (10).

Əgər biz folklora müasir təhsilin əsas paradiqması olan ömürboyu təhsil paradiqmasından yanaşsaq, görərik ki, müxtəlif sosial qruplar və müxtəlif fərdlər üçün zəruri kompetensiyaların aşılanması folklorun əsas praqmatik funksiyalarından birini təşkil edir. Sosial həyatın müxtəlif sahələrində zəruri olan bilik və təcrübənin həyatın bütün mərhələlərində effektiv üsullarla insanlara mənimsədilməsi hazırki şəraitdə kompetensiyaların zəruriliyi ilə anologiya təşkil edir. İnsan yaş qruplarını dəyişdikcə onun cəmiyyətdəki sosial statusu da paralel olaraq dəyişir. Hər bir yeni sosial status isə əvvəlkilərdən fərqli yeni bilik və bacarıqlar, yeni səriştələr tələb edir. Bu proses fasiləsiz olaraq daim aktuallıq kəsb edir. Bu mənada folklorik kommunikasiya bütün hallarda bilik və təcrübənin ömürboyu mübadiləsi olmaqla yaş qrupundan asılı olmayaraq bütün sosial çevrəni əhatə etmək imkanına malikdir.

Ömürboyu təhsil anlayışına folklor aspektindən baxış eyni zamanda öyrənən və öyrədən sosial qrupları arasındakı yaş diferensasiyasını da nəzərdən keçirməyi tələb edir. Bu baxımdan Amerika kulturoloqu və antropoloqu Marqaret Midin mədəniyyətdə təcrübənin nəsildən-nəsilə ötürülməsi ilə bağlı kulturoloji və antropoloji araşdırmalarda geniş istifadə edilən konseptual baxışı ilə tanış olmaq yerinə düşərdi. Marqaret Mid təcrübənin ötürülməsi baxımından mədəniyətləri üç qrupa ayırır:

1. *Postfiqurativ mədəniyyət* – bilik və təcrübə yaşlı nəsildən əxz olunur;
2. *Konfiquratv mədəniyyət* – bilik və təcrübə yaşlı nəsillə bərabər, həmyaşıdlardan əxz olunur;
3. *Prefiqurativ mədəniyyət* – bilik və təcrübə həm də kiçiklərdən əxz olunur (8).

Alim belə bir mülahizə irəli sürür ki, bəşəriyyətin sosial tərəqqisinin oriyentasiyası birinci mərhələdə keçmişə, ikinci mərhələdə indiki zamana, üçüncü mərhələdə isə gələcəyə doğru istiqamətlənir. Müəllif qeyd edir ki, posfiqurativlik bilavasitə ənənəvi cəmiyyətlərə xas olan xüsusyyətdir (8).

Yuxarıda qeyd olunduğu kimi, hansı tarixi mərhələdə olmasından asılı olmayaraq folklorlaşma prosesi məhz geniş mənada qazanılan təcrübənin nəsildən-nəsilə ötürülməsi ilə həyata keçirilir. Ənənə keçmişlə gələcək arasında əlaqəni də məhz yaşlı nəsillə gənc nəsil arasında təcrübənin ötürülməsi mexanizmləri vasitəsilə reallaşdırır. Bu rakursa diqqəti cəlb etməkdə məqsədimiz ondan ibarətdir ki, kulturologiyanın öz kateqoriyal anlayışları hesabına müəyyənləşdirdiyi mədəniyyətdə təcrübənin yayılması modelinin özü məhz folklorlaşma mexanizmini fadə edir. Heç də təsadüfi deyildir ki, xalq pedaqogikasından təhsil prosesində istifadənin dünyanın əksər xalqlarında zəngin təcrübəsi mövcuddur (7, 42).

Beləliklə, ömürboyu təhsil paradiqmasından folklora baxdıqda aydın olur ki, kiçik yaşlardan dünyanı dərk və ifadə etmə kimi mənimsənilən folklor sonrakı mərhələlərdə də insanların yeni bilik və təcrübələri mənimsəməsi və mübadiləsində sosial-mədəni mexanizm kimi mühüm rol oynayır. Nəzərə alsaq ki, ömürboyu təhsilin də əsas hədəflərindən biri yenilənən sosial şərtlərə müvafiq bilik və bacarıqların, səriştə və qabiliyyətlərin əldə olunmasıdır. Bu halda ömürboyu təhsilin həyata keçirilməsindəki

təlim metodlarında folklordan geniş istifadə etmək mümkündür. Çünki öyrədən və öyrənənlərin qarşılıqlı ünsiyyət və münasibəti əsasında qurulan folklor performansı biliyin mənimsədilməsinin ən mühüm şərtlərindəndir (9, 285).

Ömürboyu təhsil paradiqmasında rəqəmsal folklor resurlarının rolu

XX əsrin ikinci yarsısından sonra İKT-nin sürətli inkişafı, kommunikasiyanın "apogeyası" (6, 23) hesab olunan İnternetin meydana gəlməsi bütün digər sahələrində olduğu kimi, ənənəvi xalq mədəniyyətinin də yeni transformasiyalarının, virtual folklor nümunələrinin meydana gəlməsinə səbəb olmuşdur. Təbii ki, müasir dövrdə rəqəmsal resursların artdığı bir mərhələdə, biliyin əldə olunması, ötürülməsi və mənimsənilməsinin üsul və vasitələri, bütövlükdə isə təhsilin xarakteri tamamilə dəyişmişdir. Xüsusilə də rəqəmsal kommunikasiya vasitələrinin geniş yayılması, virtual dünyanın meydana gəlməsi kontekstində müasir insanın, yeni nəsillərin necə yetişdirilməsi dünyanın bir sıra beynəlxalq təşkilatlarının proqramlarında yer alan məsələlərdəndir. Bu baxımdan hesab edirik ki, müasir təlim metodlarının, innovativ təhsil konsepsiyalarının həyata keçirilməsində, biliyin əldə olunması və öyrədilməsində folklorun imkanlarından, xüsusilə də, virtual folklor (İnternet folkloru), rəqəmsal folklor resurslarının potensialından geniş istifadə etmək mümkündür.

Qloballaşma və virtuallaşma proseslərinin genişləndiyi müasir dövrdə insan real sosial münasibətlər şəbəkəsi ilə bərabər, virtual sosial qrupların da üzvüdür. Xüsusilə də rəqəmsal ünsiyyət vasitələrinin ortaya çıxması və sosial şəbəkələrin mobil platformalarının meydana gəlməsi insanların günün, demək olar ki, bütöv hissəsini onlayn keçirməsinə gətirib çıxarmışdır. Hazırki dövrdə informasiya, xəbər, məlumat əldə etməkdən tutmuş ən fundamental elmi araşdırmalara, yaxud ən kiçik məişət işlərindən ən qlobal və strateji məsələlərə qədər hər bir istiqamətdə fəaliyyət İnternetlə birbaşa bağlıdır. Bütövlükdə, kommunikasiyanın virtual platformalar üzərindən olması bütün sahələrdə olduğu kimi, mənəvi mədəniyyət – folklor yaradıcılığı üçün də yeni məkanının ortaya çıxmasına səbəb olmuşdur. "yaxınlıq, sosiallaşma ehtiyacı, davamlı və qısa müddətli qarşılıqlı əlaqə, ortaq maraq və təcrübə motivasiyalarının təsiri altında virtual ünsiyyət platformalarında bir mühitə yığılan istifadəçilərin yaratdığı cəmiyyətlərin bir folklorik qrupun malik olduğu bir sıra cəhətləri özündə ehtiva etməsi, virtual cəmiyyətlərin real həyatda ekvivalenti olmayan yeni, zəngin və spesifik folklorik qruplar ve mahiyyətlər istehsal etmə qabiliyyətinə sahib olduğunun ən aydın göstəricisi olaraq şərh oluna bilər. (3, 132). Ən qədim zamanlardan bu günə qədər insanın gerçəkliyi dərki və ifadəsinin, sosial təsisat şəklində təşkil və formalaşmasının, qrup və ideologiyalara bölünməklə diferensiallaşmasının əsas vasitəsi olan folklor bu günün şərtləri daxilində – İnternetin sürətlə genişlənməsi, virtual kommunikasiyanın dominantlaşması və s. kontekstində öz mövcudluğunu saxlamaqla bərabər, yeni forma və formatlarda, məzmun və mövzularda ortaya çıxmaqdadır. Belə bir şəraitdə insanla, onun ən müxtəlif fəaliyyət sahələri ilə bağlı olan sektorların, xüsusilə də bilik və bacarıqların, səriştə və qabiliyyətlərin öyrədilməsini həyata keçirən təhsilin yeni imakan və vasitələrdən istifadə etməsi çox aktual və vacibdir. Bu baxımdan yanaşdıqda müasir təhsilin yeni paradiqması olan ömürboyu təhsil konsepsiyasını virtual və rəqəmsal resurslardan, eləcə də İnternet folkloru və rəqəmsal mədəniyyətdən kənarda təsəvvür etmək çətindir. Daha doğrusu, ömürboyu təhsil konsepsiyasının tətbiqində virtual folklor resurslarından geniş istifadə etmək mümkündür.

Fasiləsiz təhsil və yaxud ömürboyu təhsil prosesində iştirak edən subyektlərin humanitar və ictimai təmayüllü bilik və informasiya təminatının həyata keçirilməsində sosial şəbəkə və forumlarda mövcud olan virtual folklor resurslarından səmərəli şəkildə yararlanmaq mümkündür. Belə ki, ənənəvi folklor faktlarından fərqli olaraq, virtual mühitdə meydana gələn nümunələr mahiyyəti etibarı ilə qeyri-mühafizəkar, ənənəyə sərbəst münasibət əsasında ortaya çıxır. Virtual folklor nümunələri ənənəviləşmiş, normativləşmiş və stereotipləşmiş yanaşma və baxışlara yeni alternativlər təqdim edir. Milli stereotiplərlə

mühafizə olunan obraz və dəyərlərə olan parodik münasibət emosional həssaslıq yaradır ki, bu da müəyyən informasiyanın ötürülməsi və ya qəbul olunması üçün əlverişli şərait meydana çıxarır. Başqa sözlə desək, stereotiplərə parodik münasibət eyni zamanda biliyin ötürülməsi üçün effektiv psixoloji vəziyyət yaradır. Əgər Türkiyə təcrübəsinə müraciət etsək, görərik ki, "İntentetdə Lisans Yerleştirme Sınavı" (LYS) və "Kamu Personeli Seçme Sınavı" (KPSS) imtahanlarına hazırlaşan tələbələr tərəfindən izlənilən Türk ədəbiyyatının mövzuları ilə əlaqədar praktik biliklər, dərs qeydləri paylaşım edilən səhifələr mövcuddur. Bu saytların bir qismində tələbələrə "caps"-lar vasitəsi ilə, yumoristik bir dillə şairlərin ədəbi şəxsiyyətləri, əsərləri, klassik Türk ədəbiyyatına dair biliklər təqdim olunur. Məşhur şair və yazıçılar üçün müxtəlif internet saytlarında yaradılan saxta istifadəçi profillərindən təşkil olunan parodik profillər də sosial media yumorunun təmsilçisi olan nümunələrdən biridir. Klassik türk ədəbiyyatı və türk xalq ədəbiyyatı şairləri üçün açılan profillərdə bu şəxslərin arqo şəklində yumoristik bir üslubda həyatları, ədəbi şəxsiyyətləri və əsərləri haqqında məlumatlar verilməkdə və şairlərdən nümunələr paylaşılmaqdadır" (12, 177-189). Göründüyü kimi, türkdilli sayt və forumlarda müxtəlif tipli imtahanlara hazırlaşan şəxslər tərəfindən müəyyən profillər (həqiqi və yalançı) yaradılmışdır ki, həmin profillər vasitəsi ilə müxtəlif mövzulara (cari, gündəlik qayğılardan tutmuş, ən müxtəlif elm sahələrinə qədər) dair elektron resurslar yaradılır. Həmin elektron resursların müəyyən bir hissəsi komik və ya parodik üslubda olan folklorik nümunələrdir. Daha çox müasir dövrün sosial-mədəni proseslərinin virtual mühitə transformasiyası, eləcə də, İnternetdə folklor yaradıcılığının ortaya çıxması şəklində özünü göstərən həmin nümunələr, əslində, müasir insanın virtual dünyasının tərkib hissəsidir. Hər bir internet istifadəçisi və ya sosial şəbəkə üzvü bu və ya digər şəkildə həmin proseslərin içərisində olmaqla onun yaradıcısı, eyni zamanda istifadəçisidir. Başqa sözlə desək, bizim hər birimiz virtual dünyanın, onun tərkib hissəsi olan virtual folklor yaradıcılığının qurucuları və istifadəçiləriyik. Bu baxımdan yanaşdıqda, deyə bilkərik ki, sosial şəbəkələrdə saxta profil və ya saxta istifadəçi hesabları ("*fakeprofile*" və "*fakeuseraccount*") vasitəsilə yaradılan folklorik resurslar müxtəlif məqsədlərlə istifadə oluna bilər. Eyni təcrübəni ömürboyu təhsildə də tətbiq etmək, ən müxtəlif mövzu və məzmunlarla bağlı İnternetdə mövcud olan elektron resurslardan yararlanmaq mümkündür.

Problemin psixoloji aspektləri

Folklor resursları təbiəti etibarı ilə şəxsiyyətin sosial-psixoloji mahiyyətinin formalaşmasında əlahiddə imkanlara malikdir. Fərdin cəmiyyətin bütün sferalarında psixoloji kompleks və gərginlik yaşamadan sərbəst ünsiyyətə daxil olması və müxtəlif sosial qruplara adaptasiyası üçün həmin qrupun folklorunun mənimsənilməsinə böyük ehtiyac vardır. Bu mənada müasir təhsilin hədəflərindən biri yetişən yeni nəsilləri bəşəri dəyərlərlə həmahəng olan stereotiplərin təbliğinə (5, 49) və qeyri-humanist, lokal stereotiplərdən azad olmağa yönəltməkdir. Araşdırmalar sübut edir ki, əgər müasir təlim texnologiyalarında virtual folklor nümunələrindən səmərəli istifadə edilərsə, bu, qloballaşma şəraitində geniş yayılmış mədəni şok və akkulturasiya stressi yaşamadan insanların lokal psixoloji stereotiplərdən uzaqlaşmasına, təhsil vasitəsilə ümumbəşəri dəyərləri mənimsəməsinə, eyni zamanda lider şəxsiyyət kimi formalaşmasına olduqca böyük yardım etmiş olar.

İnsan eyni anda müxtəlif səviyyəli folklorik qruplarında fəaliyyət göstərir. Fərdlərin sosial məsuliyyəti genişləndikcə onun ayrı-ayrı qruplarda iştirakının kəmiyyəti ilə yanaşı, keyfiyyətində də ciddi dəyişikliklər ortaya çıxır. Özünəməxsus spesifik çalarlara malik olan sosial qruplar öz ideologiyalarını dəstəkləyən ideya və konseptlər ortaya qoyurlar ki, bu da həmin qrupa daxil olan insanların həyata baxışlarında, cəmiyyətin digər üzvləri ilə münasibətlərinin qurulmasında, müxtəlif ictimai hadisələrə reaksiyalarının müəyyənləşməsində həlledici rol oynayır. Ayrı-ayrı sosial qruplar öz idiokulturasını (1, 63; 2, 734) dəstəkləyən müxtəlif folklorik vahidlər ortaya qoyurlar ki, bu faktlar həmin qrupların emosional-ekspressiv təbiətini həm müəyyənləşdirir, həm də genişlənməsinə şərait

yaradır. İnsanların sosiallaşmasının yeni bir mərhələsi olan İnternet mühitində qrupların sayı çoxalmaqla yanaşı, onların məqsədlərində də fərqlər durmadan artmaqdadır. Belə bir şəraitdə təhsil alan subyektin şəxsiyyətinin formalaşmasında daha mürəkkəb amillər ortaya çıxır ki, bunlar bu və ya digər dərəcədə subyektlərin "həyat təlimləri"ni formalaşdırır və müasir təhsilin bu amilləri nəzərə almadan öz məqsədinə nail olması çox çətin görünür. Həyatın bütün sferalarında təhsil alan subyektin mahiyyətinin mürəkkəbləşməsi ona yanaşmada çevik, dinamik və həssas münasibətin sərgilənməsini tələb edir. Heç təsadüfi deyildir ki, müəyyən əraziyə bağlı olan ənənəvi mədəniyyətdə ortaya çıxan subyektlərin formalaşmasına təsir edən amilləri müəyyənləşdirmək və mənfi təsir edən amillərlə mübarizə aparmaq mümkün olsa da, artıq müxtəlif məqsədli qlobal virtual mühitlərin ortaya çıxması və sayca çoxluğu ayrı-ayrı mənfi effektlər yaradan qruplarla mübarizə aparmaqdan daha çox onlarla düzgün münasibət qura biləcək şəxsiyyət formalaşdılması problemi üzərinə fokuslanmışdır. Belə mürəkkəb virtual mühitlərin insan şəxsiyyətinin formalaşmasına təsir etdiyi bir şəraitdə, həyat boyu təhsil konepsiyasında folklorun rolu olduqca böyükdür.

Nəticə

Beləliklə, ömürboyu təhsildə virtual folklorun funksional imkanlarından istifadə və onun psixoloji aspektləri mövzusunda araşdırma aparılaraq aşağıdakı nəticələrə gəlindi:

1. Ömürboyu təhsil şərtilə effektiv təlim texnologiyalarının müəyyənləşdirilməsində çoxsaylı sosial-mədəni təsisatların, o cümlədən ənənəvi mədəni institutların (folklorun) təlim üsulları, biliyin ötürülməsinin ənənəvi modelləri aktual və effektivdir, onlar öz funksional imkanları ilə müasir təlim texnologiyalarının tətbiqində böyük istifadə potensialına malikdir.

2. Ənənəvi mədəniyyətin təlim texnologiyalarının aşağıdakı xüsusiyyətləri müəyyənləşdirilmişdir:

- *Dini təlim texnologiyalarından fərqli olaraq doqmatik deyil, demokratik təbiətə malikdir;*
- *Həyati situasiyaları nəzərə almaqla operativ adaptasiya xüsusiyyətinə malikdir;*
- *Biliyin empirik yolla əldə edilməsi və ötürülməsi xüsusiyyətinə malikdir;*
- *Fasiləsiz öyrənmə və öyrətmə xüsusiyyətinə malikdir.*

3. Ömürboyu təhsil paradiqmasından folklora baxdıqda aydın olur ki, kiçik yaşlardan dünyanı dərk və ifadə etmə kimi mənimsənilən folklor sonrakı mərhələlərdə də insanların yeni bilik və təcrübələri mənimsəməsi və mübadiləsində sosial-mədəni mexanizm kimi mühüm rola malikdir.

4. Ənənəvi folklor faktlarından fərqli olaraq, virtual mühitdə meydana gələn nümənələr mahiyyəti etibarı ilə qeyri-mühafizəkar, ənənəyə sərbəst münasibət əsasında ortaya çıxdığı üçün fasiləsiz təhsil və yaxud ömürboyu təhsil prosesində iştirak edən subyektlərin humanitar və ictimai təmayüllü bilik və informasiya təminatının həyata keçirilməsində sosial şəbəkə və forumlarda mövcud olan virtual folklor resurslarından səmərəli şəkildə yararlanmaq mümkündür.

5. Fərdin cəmiyyətin bütün sferalarında psixoloji kompleks və gərginlik yaşamadan sərbəst ünsiyyətə daxil olması və müxtəlif sosial qruplara adaptasiyası üçün həmin qrupun folklorunun mənimsənilməsinə böyük ehtiyac vardır.

6. Müasir təlim texnologiyalarında virtual folklor nümunələrindən səmərəli istifadə edilərsə, bu, qloballaşma şəraitində geniş yayılmış mədəni şok və akkulturasiya stressi yaşamadan insanların lokal psixoloji stereotiplərdən uzaqlaşmasına, təhsil vasitəsilə ümumbəşəri dəyərləri mənimsəməsinə, eyni zamanda lider şəxsiyyət kimi formalaşmasına olduqca böyük yardım etmiş olar.

ƏDƏBİYYAT SİYAHISI
(References)

1. Fine, Gary Alan (2005). In the company of men: female accommodation and the folkculture of malegroups. *In Manly Traditions: The Folk Roots of American Masculinities*. Edited by Simon J. Bronner, 62-76. *İndiana University Press.*
2. Fine, Gary Alan (1979). SmallGroup and CultureCreation: Theİdioculture of LeagueBaseballTeams. *AmericanSociologicalReview*, 44: 733-745.
3. Gülüm, Erol (2018). Dijital iletişim teknolojileri aracılı bir folklorik denyim alanı olarak sanal ortam. Milli folklor 119, s. 127-139
4. Hajiyev, T (2004). Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər, 376 s.
5. Hamer, Lynne (2000) "Folklore in Schools and Multicultural Education: Toward Institutionalizing Noninstitutional Knowledge." *TheJournal of American Folklore*, vol. 113, no. 447, pp. 44–69.
6. Krawczyk-Wasilewska, Violetta (2016). Folklore in the Digital Age: Collected Essays. Foreword by Andy Ross. Lodz, Lodz University Press.
7. Marina Ilić , Žana Bojović. (2016) Teachers' Folk Pedagogies. Journal of Arts & Humanities. Volume 05, Issue 09, pp. 41-52
8. Маргарет, Мид: постфигуративная, кофигуративная и префигуративная культуры.https://studme.org/128004154844/kulturologiya/mid_postfigurativnaya_kofigurativnaya_prefigurativnaya_kultury (14.07.2019)
9. Morgan-Fleming, B. (1999). Teaching as Performance: Connections between Folklore and Education. *Curriculum Inquiry,29* (3), 273-291.
10. Decree of theCabinet of Ministers of AzerbaijanRepublicabouttoaffirm "NationalQualificationFrame on thelifelong-learning of AzerbaijanRepublic. "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikasi Nazirlər Kabinetinin Qərarı. http://e-qanun.az/framework/39622
11. Poyraz, Hande&Titrek, Osman (2013). Development of Lifelong Learningin Turkey. Abant İzzet Baysal University Education Faculty Journal. 13. pp. 115-131
12. Yilmaz, Gökçehan, Yilmaz, Berk (2016). Sosyal Medyada "Caps"ler ve Parodi Hesaplarla Türk Edebiyatı: Klasik Türk Edebiyatı ve Türk Halk Edebiyatı Örneği. Uluslararası genc akademisyenler kültür kongresi. Bildiriler kitabı. İzmir s. 177-189.
13. Zeynallı, Hənəfi (2012). Azərbaycan atalar sözü. Bakı: Elm və təhsil, 174 s